Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir





# Nuh və Böyük Daşqın

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: M. Maillot; Tammy S.

Tərcümə edən: Günay  Karaağac

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



Nuh Allaha ibadət edən adam idi. Digərləri isə Allaha nifrət və itaətsizlik edirdi. Bir gün Allah heyrətləndirici bir şey dedi.


Allah Nuha dedi:
“Mən bu pozğunlaşmış dünyanı məhv edəcəyəm. Yalnız sənin ailən xilas olacaq”.


Allah Nuha xəbərdarlıq etdi ki,
böyük daşqın gələcək və yer
üzünü basacaq.

“Ağacdan gəmi düzəlt, sənin ailən və çoxlu heyvanlar üçün kifayət qədər böyük olsun”, deyə Allah Nuha əmr etdi.



Allah Nuha dəqiq təlimatlar verdi. Nuh işə başladı!





Nuh gəmini nə üçün tikdiyini başa saldıqca, insanlar yəqin ki, onu ələ salırdılar.


O, həmçinin, insanlara Allah haqqında da
danışırdı. Heç kim dinləmirdi.


Nuhun böyük imanı var idi. Baxmayaraq ki, əvvəl heç vaxt yağış yağmamışdı o, Allaha inandı.


Tezliklə gəmi təchizatlarla dolmağa hazır idi.

İndi isə heyvanlar gəldilər. Allah bəzi cinslərdən yeddi, digərlərindən iki cüt gətirdi.



Böyük və balaca quşlar, balaca və hündür çöl heyvanları gəmiyə gəldilər.




Bəlkə, Nuh heyvanları
gəmiyə doldurduqca
insanlar qışqıraraq
onu təhqir
edirdilər.

Onlar Allaha qarşı günah işlətməyə davam edirdilər.  Onlar gəmiyə daxil olmağı xahiş etmədilər.





Nəhayət,

bütün heyvanlar və quşlar gəmiyə daxil oldular. Rəbb Nuha dedi: “Sən bütün ailənlə birgə gəmiyə gir”.


Nuh, onun arvadı, oğulları və gəlinləri birlikdə gəmiyə girdilər.
Sonra Allah qapıları bağladı!



Sonra yağış yağdı. Qırx gün, qırx gecə yer üzündə daşqın oldu.



Su şəhərlər və kəndlər üzərinə töküldü.



Yağış dayananda, hətta dağlar da suyun altında qalmışdı. Nəfəs alan bütün canlı varlıqların hamısı öldü.



Su çox yuxarı qalxdıqca, gəmi suyun üzündə üzməyə başladı. Ola bilsin ki, gəminin içi qaranlıq, bəlkə də kələ-kötürlü və yaxud da vahiməli idi. Lakin gəmi Nuhu daşqından qorudu.


Beş ay sürən daşqından sonra Allah yer üzərinə külək göndərdi. Yavaş-yavaş gəmi Ararat dağlarında dayandı.

Su çəkilənə qədər Nuh daha qırx gün gəminin içində qaldı.



Nuh gəminin açıq pəncərəsindən qarğa və göyərçin buraxdı. Göyərçin qonmaq üçün rahat bir yer tapmadığına görə Nuhun yanına qayıtdı.



Bir həftə sonra Nuh yenidən göyərçini buraxdı. Sonrakı həftə Nuh yer üzərinin quru olduğunu bildi, çünki göyərçin geri qayıtmadı.


Allah Nuha dedi ki, artıq gəmidən çıxmaq vaxtıdır. Nuh və onun ailəsi birlikdə heyvanları gəmidən çıxartdılar.

Nuh yəqin ki, necə
də minnətdar idi!  O,
qurbangah tikdi, onu
və onun ailəsini
dəhşətli daşqından
xilas edən Allaha
ibadət etdi.




Allah Nuha gözəl əhd verdi. İnsan günahını mühakimə
etmək üçün O, yer üzərinə bir daha daşqın göndərməyəcək.


Allah
Öz əhdini
xatırlatmaq
üçün gözəl bir
əlamət qoydu.
Göy qurşağı
Allahın əhdinin
əlaməti idi.

Nuh və onun
ailəsi daşqından sonra
yeni başlanğıc tapdılar.
Vaxt keçdikcə onun
nəsli yer
üzərində

yenidən artdı.




Yer
üzərindəki bütün
insanlar Nuhdan və
onun övladlarından
yarandı.

# Nuh və Böyük Daşqın

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yaradılış 6-10

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**